# Daşkənddə Maqsud Şeyxzadəyə həsr olunan tədbir keçirilib

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Daşkənd Dövlət Nəqliyyat Universiteti ilə birgə yazıçı, özbək ədəbiyyatının dramaturqu, azərbaycanlı şair, ədəbiyyatşünas-alim, dünya ədəbiyyatı klassiklərinin özbək dilinə tərcümələrinin müəllifi, pedaqoq Maqsud Şeyxzadəyə həsr olunmuş "Azərbaycanlı böyük sima" adlı tədbir keçirib.**

Tədbirdə çıxış edən Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktor müavini Nadir Əlimirzəyev yazıçının



yaradıcılığının özbək mədəniyyətinin, incəsənətinin bütün sahələrinə təsir etməyindən söz açıb. "Azərbaycan və Özbəkistan arasında ədəbi-mədəni, dostluq, qardaşlıq əlaqələrinin qurulmağında Maqsud Şeyxzadənin böyük rolu olub. Mədəniyyət Mərkəzi onun yaradıcılığını hər zaman diqqət mərkəzində saxlayıb. Hər il M.Şeyxzadə ilə bağlı nəşrlər, filmlər, məqalə və televiziya verilişlərinin hazırlanması layihəsinə dəstək verir, konfrans və seminarlar keçirir. Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə Özbəkistan Dövlət Televiziyası dramaturqla bağlı bir neçə sənədli film də ərsəyə gətirib", - deyə o əlavə edib.

Azərbaycan Mədəniyyət Mərkəzi və Özbəkistanın Dövlət Televiziyasının "Mahalla" telekanalının hazırladığı, M.Şeyxzadəyə həsr edilən "Əziz insan" sənədli filmi nümayiş olunub.

Ekran əsərində azərbaycanlı və özbəkistanlı alimlərin, incəsənət və mədəniyyət xadimlərinin şairin yaradıcılığı ilə bağlı fikirləri, xatirələri yer alıb.

Azərbaycan.- 2024.- 10 aprel, № 74.- S.15.